## SÜLEYMAN RÜSTƏM GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR HAQQINDA

Süleyman Rüstəm ***Nizaminin*** humanist ideyalarına və bəşəri dəyərlərinə heyranlıqla yanaşmış, klassik irsə bağlılığını şeirlərində ifadə etmişdir.

***

***Füzulinin*** lirikasını yüksək qiymətləndirən şair onun məhəbbət və insanilik mövzusundakı dərinliyini xüsusi vurğulamışdır.

***

Şair ***Axundzadənin*** maarifçi ideyalarını və xalqın tərəqqisi uğrunda mübarizəsini yüksək qiymətləndirmiş, onu milli oyanışın öncüllərindən biri kimi təqdim etmişdir.

***

Sənət aləmində unudulmayan, əbədi yaşayan sənətkarlarımızdan biri də ***Hüseynqulu Sarabskidir***. Vaxtı ilə şöhrəti dastan kimi dildən-dilə gəzən bu əvəzsiz ustadın musiqi mədəniyyətimizin, opera sənətimizin inkişafında çox böyük xidmətləri olmuşdur.

***

Şaiqdə nadir bir müəllimlik xüsusuiyyəti vardı. O, hər tələbənin qəlbinə nüfuz etməyi bacarırdı. O, öz tələbələrinin hansı ailədə nə kimi şəraitdə yaşadıqlarını yaxından öyrənir və hər tələbəyə onun xasiyyətinə görə yanaşmağı bacarırdı. O , həm də çox tələbkar bir müəllim idi... Demək olar ki, ədəbiyyatı bizə çox sevdirənlərdən, ədəbi zövqümüzü tərbiyyə edənlərdən biri sevimli ədibimiz ***Abdulla Şaiq*** olmuşdu.

***

***Məmməd Əkbərin*** yazdıqlarının hamısı həyatdan gəlmədir… Onları sadəcə "oxudum" demək azdır, maraqla oxudum. Bunlardakı əhvalatların sadəliyinə, mənəvi-təbiyəvi təsir gücünə heyran qaldım və inandım ki, Məmməd Əkbər yaşamaq və yaratmaq əzmi ilə yazıb-yaratmış, onun ürəyi həmişə insanları xoşbəxt görkəmk arzusu ilə çırpınmışdır.